# "Hədəfimiz cəmiyyətə liderlik edə bilən şəxsiyyətlər yetişdirməkdir"



## *Qazi Universitetinin rektoru Prof. Dr. Musa Yıldız:*

# "Azərbaycanın ali təhsil müəssisələri ilə əlaqələrimizi davam etdirəcəyik"

- *Hörmətli rektor, ilk öncə müsahibəmizə vaxt ayırıb suallarımızı cavablandırdığınız üçün Sizə təşəkkür edirik.*

- Mənə bu imkanı verdiyiniz üçün mən də sizə minnətdarlığımı bildirir, bütün oxucuları hörmət və ehtiramla salamlayıram.

### Yüksək mənəvi elmi dəyəri olan müəllimlik peşəsi

- *Hocam, əvvəlcə ondan başlayaq ki, siz də Qazi Universitetinin məzunusunuz. Vaxtilə tələbəsi olduğunuz universitetin indi rektorusunuz. Duyğularınızı bizimlə paylaşmağınızı rica edirəm.*

- 1988-ci ildə Qazi Universiteti Təhsil fakültəsinin Xarici dillərin tədrisi şöbəsinin "Ərəb dilinin tədrisi" ixtisası üzrə məzun oldum. Eyni sahədə magistratura və doktorantura təhsilimdən sonra dosentlik və professorluq təhsilimi davam etdirdim. 1996-1997-ci illərdə Qahirə Universiteti Ədəbiyyat fakültəsində qonaq tədqiqatçı, Dos. Dr. kimi işləmişəm. 2002-2003, 2012-2013 və 2014-2019-cu illərdə Qazi Təhsil Fakültəsi Ərəb Dili Təhsili bölməsi, 2007-2010-cu illərdə Qazi Təhsil Fakültəsi, Xarici dillərin təhsili şöbəsinin müdir müavini, 2007-2010-cu illərdə Qazi Təhsil Fakültəsinin "Erasmus" proqramı üzrə koordinatoru, 2011, 2012-2013-cü illərdə Qazi Universiteti Təhsil Elmləri İnstitutunun direktor müavini, 2012-2013-cü illərdə Qazi Universitetində "ÖYP"nin koordinatoru, 2012-2013-cü illərdə Qazi Universiteti Təhsil Elmləri İnstitutunun direktoru vəzifələrində çalışmışam. 2013-2014-cü illərdə Hoca Əhməd Yəsəvi Universitetinin Türkiyə tərəfinin rektoru, 2015-2020-ci illərdə isə Hoca Əhməd Yəsəvi Universitetinin İdarə Heyyətinin sədri vəzifələrində fəaliyyət göstərmişəm. 2020-ci ilin avqust ayından isə Qazi Universitetinin rektoru vəzifəsində çalışıram.

1984-cü ildə universitetimizin kampusuna ilk addım atanda müəllimlik peşəsinin müqəddəsliyinin dövlətimiz və millətimiz üçün nə qədər önəmli olduğunun fərqinə vardım və böyük həvəslə "Qazi Təhsil Fakültəsi"ndə təhsil almağa başladım. Aradan keçən müddətdə həm universitetimiz, həm də fakültəmiz akademik uğuru ön planda tutan, tələbələrinin qayğısına qalan və problemləri ilə maraqlanan, öz sahələrində dünyada və ölkəmizdə söz sahibi olan elm insanları ilə məzunlarını yetişdirməyə davam edir.

Bir təhsil adamı olaraq, qeyd etmək istərdim ki, müəllimlik peşəsi millətimiz və bütün bəşəriyyət üçün yüksək mənəvi və elmi dəyəri olan milli peşədir. Müəllimlik peşəsi fədakarlıq, ciddi əmək, sədaqət, sizə əmanət olunan balalara peşənin ləyaqətinə və tələblərinə uyğun davranmağı tələb edir. Qazi Təhsil Fakültəsindən məzun olan gənc həmkarlarımızın da bu xüsusiyyətlərə sahib olduqlarına və dövlətimizə, millətimizə, yeni nəsillərimizə yaxşı bələdçi olacaqlarına, müəllim olmaq üçün sadalanan prinsipləri yerinə yetirəcəklərinə tam inanıram. Tələbəlik illərindən etibarən bu qurumun bir parçası olmaqdan çox qürur duyuram. Hazırda da üzərimizə düşən inzibati və akademik vəzifələri də layiqincə yerinə yetirməyə çalışırıq.

### Tələbəsi, pedaqoqu və rektoru olmaq şərəfi

- *Qazi Universitetinin elm insanı olmağınız yolunda töhfələri, daha sonra rektorluq vəzifəsinin məsuliyyəti barədə danışmağı rica etsək, nələr söyləsiniz?*

- Az öncə qeyd etdiyim kimi, Qazi Universitetinin kampusuna ilk dəfə 1984-cü ildə "Qazi Təhsil Fakültəsi"nin tələbəsi kimi qədəm qoymuşam. Böyük həvəslə davam etdirdiyim bakalavr təhsilimi 1988-ci ildə başa vurdum. Daha sonra adını Qazi Mustafa Kamal Atatürkün "Qazi" titulundan alan, Türkiyə təhsil sisteminin sevimli qurumlarından biri, təhsil sahəsində dünyada 21-ci yerdə olan "Qazi" universitetimizdə elm adamı kimi çalışmaya başladım. 2020-ci ildən bu möhtərəm qurumun rektoru vəzifəsində çalışıram. Ona görə də, bu qurumun tələbəsi, pedaqoqu və rektoru olmaq şərəfinə nail oldum.

Qazi Universiteti Türkiyə Respublikasının əsas təhsil ocaqlarından biridir. Universitetimizin tarixi 1926-cı ildə yaradılmış Orta Müəllimlər Məktəbi və Təhsil İnstitutuna əsaslanır. Bu, son dərəcə köklü və keyfiyyətli bir universitetdir. Bundan əlavə, Qazi Universitetinin tələbə və pedaqoji heyətinin çox yaxşı bildiyi bir prinsip var: "Gazili olmaq ayrıcalıktır". Qazi Universiteti keçmişdən bu günə bu prinsipə uyğun olaraq keyfiyyətdən ödün vermədən təhsil və təlim fəlsəfəsini davam etdirən bir ali təhsil müəssisəsidir. Tələbəsi olduğum bu qurumun təhsil və təlim fəlsəfəsini mənimsəmiş, Qazi ruhunu daşıyan bir insanam. Ona görə də bir pedaqoq kimi, təməli təhsil olan Qazi Universitetinin akademik kimliyimə böyük təsiri var. Təbii ki, Qazi Universitetinin rektoru olmaqdan çox qürur duyuram.

Rektor kimi fəaliyyətə başladığım ilk gündən bu qurumu həm ölkə, həm də beynəlxalq səviyyədə daha yüksək pillələrə daşımaq üçün çalışırıq. Qazi universiteti hamımız üçün bir əmanətdir. Bu əmanəti qorumaq, inkişaf etdirmək və ucaltmaq bizim vicdani borcumuzdur. Qazi Universiteti pedaqoji heyəti, infrastrukturu, təcrübəsi və keyfiyyəti ilə parlaq gələcək üçün yüksək potensiala malik universitetdir. Biz əsas borcumuz olan elm sahəsində töhfələr vermək, təhsil və təlim xidmətlərini ən yaxşı şəkildə yerinə yetirməklə, bizə əmanət olan gənclərimizi gələcəyə ən yaxşı şəkildə hazırlayacağıq. Ürəkdən inanıram ki, bütün Qazililərlə birlikdə universitetimizi daha da yaxşı yerlərə gətirəcəyik.

> **Bir təhsil adamı olaraq, qeyd etmək istərdim ki, müəllimlik peşəsi millətimiz və bütün bəşəriyyət üçün yüksək mənəvi və elmi dəyəri olan milli peşədir. Müəllimlik peşəsi fədakarlıq, ciddi əmək, sədaqət, sizə əmanət olunan balalara peşənin ləyaqətinə və tələblərinə uyğun davranmağı tələb edir.**

> **Qazi Təhsil Fakültəsindən məzun olan gənc həmkarlarımızın da bu xüsusiyyətlərə sahib olduqlarına və dövlətimizə, millətimizə, yeni nəsillərimizə yaxşı bələdçi olacaqlarına, müəllim olmaq üçün sadalanan prinsipləri yerinə yetirəcəklərinə tam inanıram.**

### Mustafa Kamal Atatürkün göstərişi ilə əsası qoyulan universitet

- *Hörmətli rektor, sizin də qeyd etdiyiniz kimi, Qazi Universiteti Türkiyənin tarixi qədim olan və hazırda ən çox seçilən universitetlərindən biridir. Universitetin yaranma hekayəsini qısaca paylaşa bilərsinizmi?*

- 1926-cı ildə Qazi Mustafa Kamal Atatürkün göstərişi ilə təməli qoyulan Qazi Universiteti üçün layihələr dövrün qabaqcıl memarlarından alınıb. Müsabiqədə "İlk Milli Memarlıq Hərəkatı"nın öncüllərindən olan Memar Kəmaləddinin uğurlu layihəsi qısa zamanda Ankaranın mərkəzində möhtəşəm bir tikiliyə çevrildi və bu tikili "Orta Müəllimlər Məktəbi və Təhsil İnstitutu" adıyla fəaliyyətə başlamışdır. Bu gün Qazi Universitetinin rektorluq binası kimi istifadə olunur. Orta Təhsil Məktəbi və Təhsil İnstitutunun adı 1929-cu ildə "Qazi Orta Təhsil Məktəbi və Təhsil İnstitutu" olaraq dəyişdirilib və uzun illər bu adla xidmət etmişdir. Qazi Orta Təhsil Məktəbi və Təhsil İnstitutu 1976-cı ildə ad dəyişikliyindən sonra "Qazi Təhsil İnstitutu" olaraq adlandırılmışdır. İnstitut 1982-ci ildə 2809 saylı qanunla "Qazi Universiteti" adını qazanmışdır. Qazi Universitetinin əsasını təşkil edən ənənədə Qazi Təhsil İnstitutundan başqa, Ankara Ali Texniki Müəllim Məktəbi və Ankara Texniki Ali Qızlar Müəllim Məktəbi, Ankara İqtisadiyyat və Ticarət Elmləri Akademiyası, Sənaye İncəsənət Ali Müəllimlər Məktəbi, Ticarət və Turizm Ali Müəllimlər Məktəbi, Ankara Mühəndislik Memarlıq Liseyi də böyük rol oynayıb.

Yarandığı ilk vaxtlarda tərkibində 9 fakültə, 12 kollec və 4 institutun daxil olduğu Qazi Universiteti bu gün 11 fakültə, 1 kollec, 3 peşə liseyi, 5 institut və 39 araşdırma mərkəzi ilə adının daşıdığı Qazi Mustafa Kamal Atatürkə layiq bir ali təhsil ocağı olmaq iddiasını davam etdirir.

09.05.2018-ci il tarixli "Bəzi Qanunlarda və Qanunvericilik Hökmlərində Dəyişiklər edilməsi haqqında" "Ali Təhsil Qanunu" çərçivəsində universitetin tərkibindəki bəzi fakültə, kollec və peşə liseyləri Ankara Hacı Bayram Vəli Universitetinə tabe edilib. 3.314 akademik heyəti, 2.671 inzibati heyəti və 38.404 tələbəsi olan universitet təhsil, tibb, stomatologiya, əczaçılıq, tibb elmləri, mühəndislik, memarlıq, texnologiya və idman elmləri kimi sahələrdə tədrisini davam etdirir. Ankaranın mərkəzində yerləşən Qazi Universitetinin fakültə və kolleclərin cəmləşdiyi mərkəzi kampusla yanaşı, "Beşevler", "Emek", "Maltepe", "Çankaya", "Ostim", "Gölbaşı" və "Kahramankazan"da kampusları var.

### Məzun olmağın qürurunu hər zaman daşıyıram

- *Təhsil fakültəsi deyildikdə, ilk ağıla gələn yenə Qazi Universiteti olur. Siz də bu fakültənin məzunusunuz... Qazi Universitetinin, xüsusən də müəllim, təhsil idarəedicisi hazırlığında belə bir nüfuza sahib olmasında əsas amil nədir?*

- Universitetin yaranmasından başlasaq, Qazi Təhsil Fakültəsi 1926-cı ildə Qazi Mustafa Kamal Atatürkün göstərişi ilə qurulan və təhsilə əsaslanan quruluşa malik qurumun ən öndə yer alan fakültəsidir. Köklü tarixi, tədris keyfiyyəti, pedaqoji kadrların və tələbələrin sayına görə müəllim hazırlığı müəssisələri arasında Türkiyənin qabaqcıl və brend universitetlərindən biri olan Qazi Universitetinin lider fakültəsidir. Fakültədə bir çox kafedralar var. Bunlar; Kompüter və Tədris Texnologiyaları Təhsili, Təhsil Elmləri, Gözəl Sənətlər Təhsili, Riyaziyyat və Fənn Təhsili, Xüsusi Təhsil, Türk dili və Sosial Elmlər Təhsili, Təməl Təhsil və Xarici Dil Təhsili şöbələridir. Təhsillə bağlı şöbələrin müxtəlifliyi, pedaqoji heyətin keyfiyyəti, tədris fəaliyyətinin keyfiyyəti, sosial-elmi-mədəni və akademik layihələrdəki nailiyyətlər, akademik tədqiqatlara verilən maddi və mənəvi dəstək və s. baxımından müəllim olmağı düşünən tələbələrin ilk seçimlərindən biridir. Mən də Qazi Universitetinin Təhsil fakültəsindən məzun olmağın qürurunu hər zaman daşıyıram. Biz bu prinsipi həm universitet tələbələrimiz, həm də bütün digər üzvlərimizə də yaşatmağa çalışırıq.

### "95 il ərzində 95 fəaliyyət"

- *Qazi Universiteti sosial və mədəni fəaliyyət baxımından Türkiyənin azsaylı universitetlərindən biridir. Universitetin tələbələrə təqdim etdiyi xüsusi imkanlardan danışa bilərsinizmi? Məsələn, bir tələbə təhsil almaq üçün (xüsusən də xarici tələbə) nədən Qazi Universitetini seçməlidir?*

- Qazi Universiteti cəmiyyətə liderlik edə bilən, milli, əxlaqi, mədəni və bəşəri dəyərlərə hörmət edən şəxsiyyətlər yetişdirməyi hədəfləyir; qabaqcıl tədqiqatlar vasitəsilə yeniliklər təqdim edərək, paylaşma və transformasiya yolu ilə cəmiyyətin ömür boyu təhsil və inkişaf prosesinə töhfə vermək missiyası ilə fəaliyyətini davam etdirən bir qurumdur. Biz vəzifəyə gəldiyimiz gündən qarşımıza məqsədlər qoymuşuq.

Bu məqsədlərdən biri də sosial məsuliyyət şüurunu və xidmət keyfiyyətini artıraraq cəmiyyətə töhfə verməkdir. Bu çərçivədə 2021-ci ildə universitetimizin 95 illik yubileyini qeyd etdiyimiz zaman akademik və inzibati vahidlərdən tutmuş tələbə cəmiyyətlərinə qədər bir çox bölmə və iştirakçılarla "95 il ərzində 95 fəaliyyət" devizi ilə tədbirlər təşkil etdik. 2021-ci ildə 661 tədbir həyata keçirməklə hədəfimizi dəfələrlə üstələmişik. Bundan əlavə, tələbələrimiz üçün milli dəyərlərimiz nəzərə alınmaqla mədəniyyətimizin zənginliyini əks etdirən anım və bayram proqramları, konfranslar, panellər, simpoziumlar, musiqi və səs müsabiqələri, konsertlər, teatr tamaşaları, ziyafətlər, yaz şənlikləri, söhbətlər və bir çox digər elmi-mədəni tədbirlərə dəstək olduq.

Universitetimizin hazırkı tələbələrinə və gələcəkdə universitetimizi seçəcək tələbələrə təqdim etdiyi imkanlar da genişdir. Müxtəlif təqaüdlər (KYK Təqaüdləri, TEV Təqaüdləri, Xüsusi Təqaüdlər, Qida Təqaüdləri), universitet bölmələrində müəyyən ödəniş qarşılığında tələbələr üçün "part-time" iş imkanları, ictimai fəaliyyət mühitləri, universitet kampuslarının Ümumi Müdirliyə məxsus yataqxanalara və özəl yataqxanalara yaxın olması, nəqliyyat asanlığı, tələbə klubları, müxtəlif kurslar, tanıtım fəaliyyətləri, karyera günləri kimi bir çox sosial imkanlarla yanaşı, təhsil sahəsində də təklif etdiyimiz xidmətlər var. Bunlar Farabi Mübadilə Proqramı, Erasmus+ Mübadilə Proqramı, Mövlana Mübadilə Proqramı, Orhun Mübadilə Proqramı, Qazi TÖMER, İkili İxtisas Proqramıdır.

### Yeni təhsil prosesinə daha hazır başladıq

- *Hörmətli rektor, məlum COVID-19 pandemiyası hər sahədə təsir etdiyi kimi təhsilə və tədrisə də ciddi təsirini göstərdi. Bəs Qazi Universiteti mövcud şəraitdə distant təhsil prosesini necə idarə etdi? Qazi Universiteti üçün distant təhsilin müsbət və ya mənfi tərəfləri nələr oldu? Sizcə, Qazi Universiteti bundan sonra kriz idarəçiliyində nümunə götürülə bilərmi?*

- COVID-19 pandemiyasının təsirləri ilə əlaqədar 2021-ci ilin mart ayından digər təhsil müəssisələri kimi biz də təcili olaraq distant təhsil prosesinə keçdik. Əvvəllər universitetimizin Distant Təhsil Tətbiqi və Araşdırma Mərkəzi tərəfindən tədris tədbirləri həyata keçirilirdi, lakin sentyabr ayından etibarən Ahmet Yəsəvi Universitetində distant təhsil təcrübəmizi buraya köçürdük və bölmələrimizin, tələbələrimizin və müəllimlərimizin ehtiyaclarını təhlil edərək infrastrukturumuzu gücləndirdik, təfərrüatlı olaraq yeni təhsil prosesinə daha hazır başladıq.

28 sentyabr - 2 oktyabr 2021-ci il tarixləri arasında universitetimiz müəllimləri üçün "Təhsil işçilərinin Distant Təhsil Proqramı"nı təşkil etdik. Bu proqram çərçivəsində distant təhsildə professor-müəllim heyəti üçün biz dizayn, etika və müəllif hüquqları, materialın inkişafı, qarşılıqlı əlaqə və buzqıranlar, sinifin idarə edilməsi, qiymətləndirmə üzrə təlimlər keçirdik. Bu təlimlərdən sonra şöbə müdirlərimiz və dekanlarımız 5 oktyabr - 9 oktyabr 2021-ci il tarixləri arasında "Tələbə yönümlü distant təhsil proqramı" çərçivəsində universitetimizi, bölmə və fakültələrimizi tanıtdılar. Beləliklə, yeni tələbələrimizin ailəmizə uyğunlaşması təmin olundu.

Universitetimiz daxilində bakalavr və magistratura proqramları üzrə təlimlərə uğurla başlaması ilə yanaşı, beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Tibb Universitetinin tələbələrinə də təlim keçməyə başlamışıq. Bundan əlavə, universitetimizin texniki infrastrukturundan istifadə edərək 21-23 oktyabr 2021-ci il tarixləri arasında Milli Məclisin sədri Prof. Dr. Mustafa Şentopun iştirakı ilə "XII. "Beynəlxalq Dünya Dili Türkcə Simpoziumu"nu da onlayn keçirdik.

⇨Ardı səh.9

# "Hədəfimiz cəmiyyətə liderlik edə bilən şəxsiyyətlər yetişdirməkdir"

⇦ Əvvəli səh.8

Distant təhsilin müsbət və mənfi tərəflərini qiymətləndirdiyimiz zaman distant təhsil prosesində istifadə etdiyimiz təlimin idarə edilməsi sisteminə əl müdaxiləsi olmadan məlumatları avtomatik olaraq "Tələbə İnformasiya Sistemi"ndən çıxardıq və sinxronizasiyanı müəyyən fasilələrlə həyata keçirdik. Beləliklə, qlobal epidemiya zamanı universitetimizin məlumat bazalarından və strukturlarından, həm informasiya emal resurslarından, həm də insan resurslarından səmərəli yararlanaraq hər kəsin məhsuldar bir proses keçməsi üçün əlimizdən gələni etdik. Bu dövrdə tədrisin idarə edilməsi sistemimizdə yaradılmış virtual sinif otaqlarının ümumi sayı 130.567, kursların ümumi sayı 16.176, bu kurslar üzrə tələbələrin ümumi sayı isə 242.024 nəfər olub. Tədris idarəetmə sistemimizdə qeydiyyatdan keçmiş tələbələrin ümumi sayı 33965 nəfər olduğu halda, təlimatçıların ümumi sayı 1757 nəfər oldu.

2020-2021-ci tədris ilinin payız dövrü üçün distant təhsil + üzbəüz (hibrid) fəaliyyətlər keçirmək qərarına gəldiyimiz gündən bununla bağlı heç bir problemimiz olmayıb. Bizim güclü infrastrukturumuz var. Odur ki, COVID-19-a görə yaşadığımız vəziyyət nə etdiklərimizə, nə də edəcəyimizə mane olur. Universitetimizdə bu məsələ ilə bağlı qeyri-müəyyənlik yoxdur. Qazi Universitetinin təhsil, araşdırma fəaliyyətləri və elmi toplantıları bütün sürəti ilə davam edir.

### Universitetimizi daha yaxşı nöqtələrə daşıyacağıq

- *Qazi Universiteti olaraq beynəlxalq hədəfləriniz nədən ibarətdir?*

- Təhsilin keyfiyyətini artırmaq, beynəlmiləlləşməni və akkreditasiyanı təşviq etmək, universitetin vizyonunu gücləndirəcək yüksək keyfiyyətli və əlavə dəyərli tədqiqat və təkmilləşdirmə işləri aparmaq, tədqiqat fəaliyyətini təşviq etmək və genişləndirmək milli və beynəlxalq normalar çərçivəsində bizim məqsədlərimizdən bəziləridir. 2017-ci ildə YÖK (Yüksək Öyrətim Qurumu) tərəfindən "Tədqiqat Universiteti" seçilən 11 universitetdən biri olaraq universitetimiz tələbələrin tədqiqat kültürü çərçivəsində biliklərini inkişaf etdirə və akademik tədqiqatlarda üstünlük qazana biləcəkləri bir qurum olaraq fəaliyyətini davam etdirir.

Qazi Universitetinin ixtisaslı və yükcək bacarıqlara sahib professor-müəllim heyəti var. Bütün heyətimiz fədakarlıqla çalışmağa davam edir, milli və beynəlxalq layihələri həyata keçirmək üçün səriştə və məhsuldarlıq nümayiş etdirir.

Digər tərəfdən, Qazi Universiteti rəhbərliyi olaraq akademiklərimizin üstün keyfiyyətinin və potensialının fərqindəyik. Buna görə də uyğun bölmələrimiz və pedaqoji heyətimiz arasında sinerji yaratmağı, əməkdaşlığı təşviq etməyi, koordinasiya və strategiyalarımızı inkişaf etdirməyi, hazırkı potensialımızı daha irəli nöqtələrə daşımağı qarşımıza hədəf qoyduq. Bu məqsədlə universitetimizin akademik bölmələri və pedaqoji heyəti ilə bir araya gəlmək, qarşılaşdıqları problemləri və layihələrlə bağlı gözləntilərini dinləmək üçün görüşlər təşkil etdik.

Universitetimizin "Tədqiqat universitetləri", URAP-ın təşkil etdiyi "Universitetlərin akademik performansı" və "Times Higher Education"un "Sahələrə görə ən yaxşı universitetlər" kimi ali təhsil müəssisələrinin akademik nailiyyətlərinin qiymətləndirildiyi reytinq cədvəllərində yerini üst sıralara daşımaq üçün dinamik bir şəkildə işimizi davam etdiririk. İnanıram ki, qarşıdakı dövrdə davam edəcək görüşlərlə daha koordinasiyalı iş mühiti təmin edəcəyik və bununla da universitetimizi daha yaxşı nöqtələrə daşıyacağıq.

### "Bir millət, iki dövlət"

- *Hocam, siz rektor olandan sonra Azərbaycan universitetləri ilə ciddi əməkdaşlığa başladınız. Protokollar imzaladınız. Bu əməkdaşlıqlardan bəhs etməyinizi rica edirəm.*

- Vəzifəmizə başladığım ilk gündən qurumun rəhbəri olaraq vizyonumuza təsir edəcək və gücləndirəcək layihələrə, əməkdaşlıqlara böyük əhəmiyyət vermişik. Azərbaycan Tibb Universiteti ilə COVID-19 pandemiyası zamanı həyata keçirdiyimiz əməkdaşlıq protokolu çərçivəsində hər iki qurumun tibb, stomatologiya, tibb elmləri və tibb bacısı fakültələri arasında professor-müəllim heyəti, elmi işçi və tələbələrin mübadiləsinə dair protokol imzaladıq. Birgə elmi tədbirlər təşkil etdik. Bundan əlavə, Azərbaycan Texniki Universiteti, Mingəçevir Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Kaspi Universiteti və Azərbaycan səfirliyi ilə bir çox pedaqoji, elmi, mədəni və sosial məsələləri əhatə edən anlaşmalar imzaladıq.

Qazi Universiteti Türk dünyasına önəm verən bir universitetdir. Türk dünyasında baş verən bütün hadisələr bizi yaxından maraqlandırır. Bu anlaşmaya uyğun olaraq digər Türk Cümhuriyyətlərinin universitetləri ilə yanaşı, Can Azərbaycanın ali təhsil müəssisələri ilə də əməkdaşlığı davam etdirəcəyik. Bundan əlavə, Qazi Universiteti olaraq bütün elm adamlarımızla birlikdə Azərbaycanın elmi inkişafına töhfə vermək üçün çalışacağıq. Biz Azərbaycanı Ulu Öndər Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" kimi görürük. Ona görə də Ulu Öndərimiz Qazi Mustafa Kamal Atatürkün dediyi kimi, "Sevincdə bir, kədərdə birik".

- *Hörmətli rektor, Dağlıq Qarabağ işğaldan azad olunandan sonra Türkiyədən bir çox rəsmi şəxslər və təhsil adamaları Şuşaya getdi. Sizin Qarabağla bağlı hər hansı planınız varmı? Ümumiyyətlə, Şuşadakı erməni vəhşiliyi haqqında nə deyərdiniz?*

- Təəssüf ki, böyük istəyimə baxmayaraq, hələ də Şuşaya gedə bilməmişəm. Məlum olduğu kimi, Ermənistan əsrlər boyu Azərbaycan ərazisi olan Qarabağı 30 ildir ki, işğal altında saxlayırdı. 27 sentyabr 2020-ci il tarixində ermənilərin hücumları qarşısında Azərbaycan da öz torpaqlarını qorumaq məqsədiylə yeni əməliyyata başladı. Azərbaycan ordusu Qarabağ yolunda çox mühüm nailiyyət əldə etdi. Qarabağın ürəyi kimi tanınan Şuşa erməni silahlı birləşmələrindən azad edilərək Azərbaycan tərəfinə geri qaytarıldı. 28 il əvvəl itirilmiş torpaqların yenidən sahibi olmaq Azərbaycanda Şuşanın alınması ilə böyük sevincə səbəb olub. Bakı küçələrində də Azərbaycan və Türkiyə bayraqları dalğalandırılaraq şənliklər keçirilirdi. Bu əməliyyat uğurla nəticələndi, lakin proses asan olmadı. Çoxlu azərbaycanlı qardaşlarımız şəhid oldu. Ermənistanın mədəni terrorçuluq fəaliyyəti nəticəsində bölgədəki tarixi abidələr Ermənistan tərəfindən dağıdılıb. Şuşadakı memarlıq abidələri Azərbaycanın yüz illiklərlə tarixinin, mədəniyyətinin və ənənələrinin göstəricisidir. Mənəvi baxımdan Şuşanın Azərbaycan üçün böyük əhəmiyyəti var. Təbii ki, belə terror aktlarının, hücumların, dağıntıların baş verməsi acınacaqlı vəziyyətdir. Biz tariximizi, torpaqlarımızı, vətənimizi, millətimizi qorumalıyıq. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətlərinə uyğun biz Qazi Universiteti olaraq hər zaman Azərbaycanın yanındayıq və hər cür dəstəyi verməyə hazırıq.

- *27 sentyabr 2020-ci il tarixində başlayan Qarabağ müharibəsinin ilk günü, səhər saatlarında Qazi Universiteti rektorluq binasından Türkiyə bayrağı ilə Azərbaycan bayrağının yanaşı asıldığının şahidi olduq. 44 günlük müharibə zamanı atdığınız addım bizə duyğulu anlar yaşatdı. Fürsət varkən, Azərbaycan tələbələri adından göstərdiyiniz həssaslığa görə başda Siz olmaqla bütün həmkarlarınıza, hörmətli müəllimlərimizə və tələbə yoldaşlarımıza bizimlə həmrəylik nümayiş etdirdiyiniz üçün təşəkkürümüzü bildiririk.*

- Qarabağ Azərbaycan-Türkiyə qardaşlığının simvoludur. Biz Qazi Universiteti olaraq II Qarabağ müharibəsi zamanı Azərbaycana dəstək olduq. Rəsmi açıqlama etməklə Azərbaycan Respublikasının torpaqlarını işğal etmiş Ermənistana qarşı özünümüdafiə hüququ çərçivəsində ərazi bütövlüyünü və xalqını qorumaq məqsədilə başlatdığı müdafiə əməliyyatını sona qədər dəstəklədik. Sizin də, söylədiyiniz kimi rektorluğun girişində 44 gün müddətində Türkiyə bayrağı ilə yanaşı Azərbaycan bayrağını da asdıq. Qazi Universiteti olaraq konfranslar, panellər, simpoziumlar, rəsm sərgiləri kimi elmi platformalarda Azərbaycanın haqq davasını dünyaya çatdırmağa çalışdıq. Bütün proseslərdə hər zaman dəstəkci olacağıq. Daha öncə də qeyd etdiyim kimi, biz Qazi Universiteti olaraq Türk dünyasında baş verənləri yaxından izləməyə davam edəcəyik.

- *Hörmətli rektor, müsahibə üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.*

- Mən təşəkkür edirəm.

**Söhbətləşdi: Şəhla ASLAN,**
*araşdırmaçı jurnalist*